# Azərbaycan milli mətbuatının 150 illiyinə həsr edilmiş tədbir

**AMEA Mərkəzi Elmi Kitabxanasında "Konstitusiya və Suverenlik İli" çəçivəsində Azərbaycan milli mətbuatının yaranmasının 150 illiyinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə ərazi partiya təşkilatının sədri, "Respublika" qəzetinin Baş redaktoru Hümbət Musayev, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "İki Sahil" qəzetinin baş redaktoru, əməkdar jurnalist Vüqar Rəhimzadə, AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Hüseyn Hüseynov, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının İctimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi Nurlana Mehdiyeva, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Emil Cavadov, YAP Yasamal rayon və AMEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşları, media nümayəndələri iştirak ediblər.**



İlk öncə tədbir iştirakçıları tərəfindən Mərkəzi Elmi Kitabxananın inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə tər gül dəstələri düzüb, əziz xatirəsi dərin ehtiramla yad edilib. Tədbirdə müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Azərbaycan milli mətbuatı xalqımızın maariflənmə və milli oyanış tarixinin ayrılmaz hissəsidir. 1875-ci il iyulun 22-də maarifçi ziyalı Həsən bəy Zərdabi tərəfindən nəşrə başlayan "Əkinçi" qəzeti Azərbaycan milli mətbuatının əsasını qoymuşdur. Qəzet 1877-ci ilin sentyabrına qədər fəaliyyət göstərmiş, cəmi 56 nömrəsi işıq üzü görmüşdür. "Əkinçi" qəzeti xalq arasında savadlılıq səviyyəsini artırmağa, maarifçilik ideyalarını yaymağa, kənd təsərrüfatı və ictimai həyatla bağlı problemləri işıqlandırmağa çalışmışdır. Ana dilində nəşr olunan qəzet mətbuat tariximizin qızıl səhifələrindən biridir. Bildirilib ki, müstəqillik illərində Ulu Öndər Heydər Əliyev milli mətbuatın inkişafını dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Onun rəhbərliyi ilə 1998-ci ilin avqustunda senzura tamamilə ləğv olundu - bu, söz azadlığı tarixində dönüş nöqtəsi oldu. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Qanun qəbul edildi və jurnalistlərin hüquqları qanunla təmin olundu. 2000-ci ildə "Azərbaycan mətbuatının 125 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalanaraq mətbuat işçilərinə yüksək qiymət verildi. Bu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Prezident İlham Əliyevin 25 aprel 2025-ci ildə Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam milli mətbuatımıza dövlət səviyyəsində verilən dəyərin daha bir parlaq nümunəsidir.



"Respublika" qəzetinin Baş redaktoru, ərazi partiya təşkilatının sədri Hümbət Musayev qeyd edib ki, təməli 22 iyul 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən qoyulan, xalqın milli şüurunun oyanmasında, əhalinin maariflənməsində əvəzsiz rolu olan Azərbaycan mətbuatının "Əkinçi" adlı qəzetlə fəaliyyətə başlamasından 150 il ötür. Mətbuat hər bir millətin təfəkkürünün formalaşmasında, elmin, təhsilin, mədəniyyətin təbliğində, cəmiyyətin maariflənməsində mühüm rol oynayan vacib amillərdən biridir. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə Azərbaycan müstəqilliyini bərpa etdi ki, bu da ölkənin mətbuatı üçün yeni bir dövrün başlanğıcı oldu. Media azadlığının genişlənməsi müstəqil qəzet, jurnal və televiziya kanallarının yaranmasına imkan verdi. Bu yeni mətbuat azadlığı fərqli fikirlərin çoxalmasına və informasiyaya daha geniş çıxışa şərait yaratdı. 1993-cü ildən başlayaraq Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən mətbuat sahəsində bir çox əsaslı islahatlar aparılmış, ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür. Ümummilli Liderimiz Heydər Əliyevin siyasi irsinin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən milli mətbuatı diqqət mərkəzində saxlamış, bu sahədə uğurlu və davamlı islahatlar həyata keçirmişdir. Tarixə qısa nəzər saldıqda, milli mətbuatımızın 125, 130, 135, 140 və 145 illik yubileylərinin Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin müvafiq sərrəncamları ilə dövlət səviyyəsində geniş şəkildə qeyd olunduğunu görürük. Elə bu təşəbbüslərlə də milli jurnalistikamızın tarixinə verilən mühüm dəyəri bir daha xatırlayırıq.

Qarabağ Zəfəri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mətbuatın rolu böyükdür. Azərbaycan mediası 44 günlük Vətən müharibəsi dövründə geniş və əhatəli məlumatlandırma işləri apararaq, informasiya müharibəsində öncül mövqedə olmuşdur. 44 günlük müharibə dövründə jurnalistlərimiz peşəkarlıq və qətiyyət göstərərək cəbhə bölgəsindən məlumatların operativ şəkildə çatdırılmasında mühüm rol oynamış, müharibə zamanı böyük təhlükələrlə üzləşsələr də, işlərini fədakarcasına davam etdirmişdilər. Qarabağ uğrunda döyüşlərdə fərqlənən və müxtəlif medallarla təltif edilənlər arasında jurnalistlərin də olması ölkəmizdə bu sahədə çalışanlara göstərilən böyük etimadın və diqqətin sübutudur. Azərbaycan mətbuatı 1875-ci ildə ilk qəzetinin nəşrindən bəri uzun bir yol keçmiş, illər ərzində çoxsaylı çətinliklərlə üzləşsə də, azadlıq və müxtəliflik baxımından əhəmiyyətli irəliləyişlər əldə etmişdir. Milli Mətbuat Günü bu uğurları xatırlamaq, ifadə azadlığı və informasiya əldə etmək hüququnun hər kəs üçün təmin edildiyi bir gələcək üçün çalışmağa təşviq etmək üçün mühüm bir tarixdir. Prezident İlham Əliyevin sonsuz diqqət və qayğısı ilə milli mətbuatımız günü-gündən inkişaf edərək uğur qazanmağa davam edəcək. Çıxışının sonunda Hümbət Musayev Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini təbrik edib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "İki Sahil" qəzetinin baş redaktoru, əməkdar jurnalist Vüqar Rəhimzadə bildirib ki, XIX əsrin sonlarına yaxın bütün Qafqazda böyük əks-səda doğuran "Əkinçi" qəzetinin naşiri, redaktoru Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri təbiətşünas-alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olub. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni mərhələyə yol açdı. 1998-ci il 6 avqust tarixində imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə kimi qiymətləndirilir. Bu Fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, medianın cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi üçün dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. 1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" Qanun mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mətbuatın rolu və jurnalistlərin fəaliyyəti böyük oldu.

Çıxışlardan sonra 22 iyul - Milli Mətbuat Günü münasibətilə və partiyanın ictimai-siyasi həyatında uğurlu fəaliyyətə görə bir qrup üzvə Fəxri fərmanlar təqdim edilib.

**Nurlan ABDALOV,**
**"Respublika".**